**Dövlət büdcəsinin vəsaiti hesabına ali təhsilli mütəxəssislərin hazırlanması haqqında ADA Universiteti və təhsil alacaq şəxs (təhsilalan) arasında Fərdi Müqavilə ___/_____**

**Bakı şəhəri** **"___" _______, 2026-ci il**

Bir tərəfdən, ali təhsil müəssisəsi olan və Prorektoru Günay Mədət qızı Ziyadova şəxsində təmsil olunan "ADA" Universiteti (bundan sonra "Universitet") və digər tərəfdən, Azərbaycan Respublikasının vətəndaşı

______________________________________________

(Adı, soyadı, atasının adı)

(bundan sonra "Təhsilalan"), (bundan sonra birgə "Tərəflər", ayrı-ayrılıqda isə "Tərəf" ) , qüvvədə olan Azərbaycan Respublikasının təhsil qanunvericiliyini və Universitetin Nizamnaməsini əsas götürərək, bu Müqaviləni aşağıdakı şərtlərlə imzaladılar:

## 1. Müqavilənin predmeti

1.1 Hazırkı Müqaviləyə əsasən Universitet, "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanına, Universitetinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə bağladığı ____ saylı ____________ tarixli müqaviləyə, Universitetin müvafiq təhsil proqramına uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına Kompüter elmləri/Kompüter mühəndisliyi/İnformasiya texnologiyaları/Riyaziyyat üzrə bakalavr ali peşə ixtisas təhsili verməyi, Təhsilalan təhsil almağı öhdəsinə götürür.

1.2 2026/2027-ci tədris ilində dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək təhsil haqqı və 750 (yeddi yüz əlli) AZN təşkil edən tələbə xərcləri daxil olmaqla illik təhsil xərcləri 6000 (altı min) AZN-dir. Bütün digər xərclər Universitetin daxili qaydalarına əsasən müəyyənləşdirilir və əlavə olaraq hesablana bilər.

1.3 Növbəti tədris ili (illəri) üçün **təhsil haqqı və tələbə xərclərinin ("Təhsil xərcləri")** məbləğləri Universitet tərəfindən dəyişdirilə bilər. Bu cür dəyişikliklər barədə Universitet daxili sənəd vasitəsi ilə Təhsilalanın məlumatlandırılmasını öz öhdəsinə götürür.

## 2. Tərəflərin hüquq və öhdəlikləri

### 2.1. Universitetin hüquq və öhdəlikləri:

2.1.1. Təhsil prosesinin yüksək elmi-metodiki səviyyədə aparılmasını təmin edir;
2.1.2. Təhsilalana Universitetin kitabxanasından istifadə etmək hüququ verir;
2.1.3. Təhsilalana təhsilini uğurla başa vurduqdan sonra təhsil haqqında dövlət sənədi verir;
2.1.4. Təhsilalandan təhsil müddətində bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsini, habelə Universitetin daxili nizam-intizam qaydalarına riayət edilməsini tələb edir;
2.1.5. Təhsilalanı tədris intizamını, təhsil müəssisəsinin daxili qaydalarını ciddi şəkildə pozduğuna və üzürsüz səbəblərdən müəyyən olunmuş miqdardan çox dərs buraxdığına görə tələbələr sırasından xaric edir;
2.1.6. Təhsilalanı bu müqavilə üzrə öhdəliklərini pozduğuna görə tələbələr sırasından xaric edir;
2.1.7. Təhsilalanın öz arzusu ilə, akademik uğursuzluğa görə, başqa təhsil müəssisəsinə köçürüldüyünə görə, müəyyən kateqoriya xəstəliklərlə əlaqədar səhhətinə görə (həkim-məsləhət komissiyasının arayışına əsasən) və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda tələbələr sırasından xaric edir;

### 2.2. Təhsilalanın hüquq və öhdəlikləri:

2.2.1. Təhsilini müvəffəqiyyətlə başa çatdırmaq;
2.2.2. Universitetin Tədris Qaydaları; Şərəf və Davranış Məcəlləsi ilə tanış olur, bu imzası ilə təsdiqləyərək onlara riayət edir;
2.2.3. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, həmçinin ümumi əxlaq və etik davranış qaydalarına riayət edir, pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşır;
2.2.4. Universitetin təyin etdiyi müddət ərzində seçdiyi ixtisas üzrə tədris planları və proqramlarını yerinə yetirir, təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnir;
2.2.5. Universitetə maddi zərər vurduqda, Azərbaycan Respublikasının qanunvericiliyinə və Universitetin həmin il qüvvədə olan daxili qaydalarına uyğun olaraq, dəymiş maddi zərəri ödəyir;
2.2.6. Universitet tərəfindən tələb olunan sənədləri şifahi və ya yazılı sorğu alındığı andan 15 (on beş) iş günü müddətində təqdim edir;
2.2.7. Universitetə sənədlərini yalnız ölkə daxilində və xaricində hər hansı bir ali təhsil müəssisəsinin tələbəsi olmadığı təqdirdə təqdim edir;
2.2.8. Bu müqavilənin 4.1 bəndində istinad edilən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan hallarda statusu barədə Universitetə müvafiq təsdiqedici sənədləri təqdim edir və bu statusunda hər hansı bir dəyişiklik(lər) barədə Universitetə dərhal yazılı məlumat təqdim edir;
2.2.9. Təhsil müddətində təhsil prosesi ilə bağlı məlumatları valideynləri, rəsmi qəyyumları və ya sponsorlarına özü təqdim edir. Universitet tələbə məlumatlarının üçüncü tərəfə verilməsi ilə bağlı heç bir öhdəlik daşımır;
2.2.10. Qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

## 3. Ödəniş qaydaları

3.1 Universitet cari və gələcək tədris illəri üçün təhsil haqqını tədris ili başlamamışdan əvvəl müəyyən edir.
3.2 Bu müqavilənin 1.2. bəndində qeyd olunmuş Təhsil xərcləri yalnız akademik tədris ilinin payız və yaz semestrləri üçün müəyyən olunub. Yay semestri üzrə Təhsil xərcləri Universitetin daxili qaydalarına əsasən hesablanır.
3.3 Təhsil haqqı hər il 5 (beş) faizdən çox olmayaraq artırıla bilər və bu artım həmin il qüvvədə olan daxili sənədə uyğun olaraq müəyyən edilir.
3.4 Təhsilalana hər hansı ödənişin müəyyən edilməsi halında, Universitet həmin ödənişi onun şəxsi kart-hesabına köçürmə yolu ilə həyata keçirir;
3.5 Təhsilalanın dövlət büdcəsi hesabına maliyyələşməsi aşağıdakı hallarda müvəqqəti olaraq dayandırılır:
3.5.1. müddətli həqiqi hərbi xidmətə çağırıldıqda (2 ildən çox olmayaraq);
3.5.2. ailə vəziyyəti və səhhəti imkan vermədikdə (2 ildən çox olmayaraq);
3.5.3. sosial məzuniyyətdə olduqda (qanunvericiliklə müəyyən olunmuş müddətə);
3.5.4. xaricdə təhsil aldıqda (1 ildən çox olmayaraq);
3.5.5. ali təhsil müəssisələri arasında bağlanılan müqavilələr çərçivəsində tələbə təhsilini xaricdə davam etdirdikdə (müqavilədə göstərilən təhsil müddətinə);
həmçinin universitetin nizamnaməsi və daxili qaydalarına (Tədris Qaydaları; Şərəf və Davranış Məcəlləsi) əsasən təhsildən uzaqlaşdırıldığı müddətdə (6 aydan çox olmayaraq)
3.6 Təhsilalanın aşağıdakı hallarda maliyyələşmədən məhrum edə bilər və bu halda Təhsil xərclərinin ödənilməsi öhdəliyi tam şəkildə Təhsilalanın/ valideynlərin /rəsmi qəyyumların və ya sponsorların üzərinə düşür:
3.6.1 Təhsilalan bu Müqavilənin 3.5.-ci bənddə göstərilən hallar istisna olmaqla, təhsilini davam etdirmədikdə;
3.6.2 Təhsilalan Universitetdən xaric edildikdə;
3.6.3 Təhsilalan bu Müqavilənin 3.5.-ci bəndində qeyd olunan hallarda göstərilən müddətlərdən çox təhsilinə fasilə verdikdə;
3.6.4 Təhsilalan ixtisasını dəyişdikdə (bu Müqavilənin 3.5-ci bəndində göstərilən səbəblərə görə müvəqqəti təhsilini dayandırmış şəxslər təhsilini davam etdirmək istədikdə, Universitetdə eyni ixtisas üzrə mütəxəssis hazırlığı aparılmadığı hallar istisna olmaqla);
3.6.5 Dövlət sifarişi əsasında maliyyələşmə müddəti bitdikdə;
3.6.6 Təhsilalan əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növündən tədrisə qismən cəlb olunma (parttime) növünə keçdikdə.
3.7 Universitet təhsil haqqı və tələbə xərci arasında bölgünü hər tədris ili üçün dəyişə bilər. Bu bölgü illik Təhsil xərcini dəyişməmək şərtilə həyata keçirilir və həmin il qüvvədə olan daxili sənədə uyğun olaraq tənzimlənir.
3.8 Ödənişin son tarixləri Universitetin daxili qaydalarına əsasən müəyyən olunur və həmin il qüvvədə olan daxili sənədə uyğun olaraq müəyyənləşdirilir.
3.9 3.5 və 3.6-cı bəndlərdə nəzərdə tutulan hallarda Təhsilalan tərəfindən ödənişin gecikməsinə görə Universitetin daxili qaydalarına əsasən müvafiq məhdudiyyətlər tətbiq edilir və müəyyən olunmuş qaydalar çərçivəsində Təhsilalanın qeydiyyatı dondurulur. 3.9.1.Yuxarıda qeyd olunmuş qaydalar Təhsilalanın Universitetə olan cəmi borcuna aid edilir.
3.10 Yay semestrində götürülmüş dərslərə görə bütün tələbələr (imtiyazlı kateqoriyalara aid və digər güzəştlərlə təhsil alan tələbələr də daxil olmaqla) bu Müqavilə ilə müəyyənləşmiş və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən illik təhsil haqqından əlavə Universitetin daxili qaydalarına əsasən aşağıdakı qaydada ödənişlər edirlər:
3.10.1 Bakalavr tələbələri yay semestri üzrə götürdükləri hər bir əlavə dərs üçün illik təhsil haqqının 10%-i miqdarında ödəniş etməlidirlər. Akademik və Peşəkar Məqsədlər üçün İngilis dili proqramında təhsil alan tələbələr yay semestri üzrə Universitet tərəfindən müəyyən olunmuş təhsil haqqını ödəyirlər.
3.11 Bu Müqavilənin 3.5 və 3.6-cı maddələrində nəzərdə tutulan hallarda, Təhsilalan Təhsil xərclərini öz vəsaiti hesabına ödədikdə və sonradan hər hansı bir səbəbdən təhsilini davam etdirə bilmədikdə, öncədən ödənilmiş təhsil haqqı, Universitetin daxili qaydalarına əsasən geri qaytarıla bilər.

## 4. Ödənişli təhsildən güzəşt və azad olunma qaydaları

4.1 Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyalara məxsus tələbələrə təhsil haqqı ilə bağlı güzəşt müvafiq sənədlər Universitetə təqdim edildiyi və qanunvericiliyə uyğun qaydada rəsmiləşdirildiyi təqdirdə verilir.
4.2 Güzəşti təsdiq edən sənəd Elm və Təhsil Nazirliyinin elektron portalında qeydiyyat zamanı təqdim oluna bilmədiyi halda müvafiq güzəşt ilk semestrə tətbiq olunmayacaq. Qeydiyyat bitdikdən sonra güzəşt sənədləri Maliyyə şöbəsinə təqdim olunmalıdır. Müvafiq yoxlama və təsdiqdən sonra bu güzəşt yalnız növbəti semestrdən etibarən tətbiq oluna bilər.
4.3 Payız və Yaz semestrinda tələbə xərci və Yay semestri ərzində götürülən hər bir dərs hər hansı bir imtiyaz kateqoriyasından asılı olmayaraq bütün tələbələr tərəfindən tam şəkildə qarşılanmalıdır.
4.4 İmtiyazlı kateqoriyalara məxsus tələbələrin təhsil haqqı güzəştlərinin tətbiq olunduğu maksimum təhsil müddəti Universitetin daxili qaydalarına əsasən müəyyənləşdirirlir.

## 5. Fors-major (qarşısıalınmaz hadisə)

5.1 Qarşısıalınmaz qüvvənin təsirinə tərəflərin nəzarət edə bilmədikləri, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizotiyalar, karantinlər, embarqolar, müvafiq qanunvericilik qərarları və digər hallar aiddir.
5.2 Qarşısıalınmaz hallara istinad edən tərəf:
5.2.1Qeyd olunan halların yarandığı vaxtdan 10 təqvim günü müddətində digər tərəfi məsələ ilə yazılı şəkildə xəbərdar edir və onun tələbinə əsasən səlahiyyətli dövlət orqanı tərəfindən hadisəni təsdiq edən rəsmi sənədi ona təqdim edir. Məlumatda baş vermiş hadisənin xarakteri təsvir edilməli və mümkün olduqda, hadisənin tərəflərin bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsirinin qiymətləndirilməsi əks etdirilməlidir.

5.2.2Həmin hallar aradan qaldırıldıqda, dərhal bu barədə digər tərəfi yazılı surətdə məlumatlandırmalıdır. Bu zaman Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qeyd olunmalıdır. Məlumatın göndərilmədiyi və ya vaxtında göndərilmədiyi təqdirdə, məlumatı təqdim etməyən və ya vaxtında təqdim etməyən tərəf müvafiq xərcləri ödəməlidir.

5.2.3Bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilmə müddəti qarşısıalınmaz halların mövcud olduğu müddətə uzadılır. Qarşısıalınmaz hallar 2 (iki) aydan çox davam edərsə, istənilən tərəf bu Müqaviləni məhkəməyə müraciət etmədən, digər tərəfi bu Müqavilənin şərtlərinə müvafiq olaraq məlumatlandıraraq poza bilər.

## 6. Müqavilənin ləğv edilməsi qaydaları

6.1 Bu müqavilə tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər. Universitet aşağıdakı hallarda bu Müqaviləyə xitam verə bilər:

6.1.1 Təhsilalan Universitetin təhsil proqramında qoyulan tələblərə cavab verə bilmədikdə;
6.1.2 Təhsilalan Universitetin Şərəf və Davranış Məcəlləsini pozduqda;
6.1.3 Təhsilalan Universitetin Tələbə Davranış Məcəlləsini pozduqda;
6.1.4 Barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;
6.1.5 Təhsilalanın öz arzusu ilə;
6.1.6 Təhsilalan üzrsüz olaraq Universitet tərəfindən müəyyən olunmuş müddətdən çox dərs buraxdıqda;
6.1.7 Təhsilalan bu müqavilə üzrə öhdəliklərini ciddi şəkildə pozduqda;
6.1.8Təhsilalan Universitetə olan borcunu müəyyən olunmuş vaxtda ödəmədikdə;
6.1.9 Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

6.2 Tərəflərdən biri bu müqaviləni birtərəfli qaydada ləğv edərsə, digər tərəfə 7 (yeddi) iş günü müddətində yazılı məlumat verməlidir.

## 7. Mübahisəli məsələlərin həlli

7.1 Tərəflər bu Müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər.

7.2 Mübahisəli məsələlərin həlli danışıqlar yolu ilə mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən məhkəmə qaydasında həll edilməlidir.

## 8. Tərəflərin məsuliyyəti

Tərəflər bu Müqavilə üzrə öhdəlikləri yerinə yetirmədikdə və ya lazımi səviyyədə yerinə yetirmədikdə, onlar Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 9. Digər şərtlər

9.1. Bu Müqavilə tərəflər onu imzaladıqdan, Universitet tərəfindən tələb olunan sənədləri fiziki olaraq təqdim etdikdən, Elm və Təhsil Nazirliyinin elektron portalı vasitəsilə qeydiyyatı tamamladıqdan sonra qüvvəyə minir və xidmət təhvil verilənədək qüvvədədir. Tərəflər razılaşırlar ki, Müqavilə Universitet tərəfindən mexaniki və ya başqa surətçıxarma (skan) vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan (skan imza) istifadə edilməklə imzalanır. Təhsilalan təsdiq və qəbul edir ki, Müqavilənin bu cür imzalanması ilə yazılı forma tələbinə riayət edilmiş və imza tələbi yerinə yetirilmiş hesab edilir.

9.2. Müqavilənin qüvvədə olma müddəti, müvafiq hallarda, 4 (dörd) və ya 5 (beş) akademik il müddətinə müəyyən edilir.

9.3. Bu Müqavilənin qüvvədə olma müddəti başa çatdıqdan sonrakı 30 (otuz) gün ərzində tərəflərdən heç biri Müqaviləyə xitam verilməsini tələb etmədikdə, onun qüvvədə olma müddəti avtomatik olaraq eyni şərtlərlə növbəti tədris ilinin sonunadək uzadılır.

9.4. Bu Müqavilə Azərbaycan dilində iki nüsxədə tərtib olunmuşdur. Bir nüsxəsi Təhsilalanda, digər nüsxəsi isə Universitetdə saxlanılır və hər ikisi eyni hüquqi qüvvəyə malikdir.

## 10. Tərəflərin rekvizitləri və imzaları

*Universitet*

Ziyadova Günay Mədət qızı
(səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)

Prorektor

İmza ________________________________

*Təhsilalan*

_____________________________________
(adı, soyadı, atasının adı)

Yaşadığı yer: Azərbaycan Respublikası,

_____________________________________

Ünvan: ______________________________

______________________, tel: ____________

Şəx.vəsiqəsinin seriyası və № _____________

İmza _________________________________

18 yaşından aşağı olan şəxsin valideynlərinin imzası və Ş/V-lərinin nüsxələrini təqdim eləmələri mütləqdir.

Valideyn / Qəyyum 1: ______________________________ __________________________________
(adı, soyadı, atasının adı) (imza)

Valideyn / Qəyyum 2: _____________________________ _________________________________
(adı, soyadı, atasının adı) (imza)